# 2015-ci ilin birinci yarısında Qəbələ rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr

İyul ayının 29-da rayon icra hakimiyyətinin iclas salonunda 2015-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilmişdir. İclasa şəhər, qəsəbə, kənd inzibati ərazi üzrə nümayəndələr, idarə və müəssisə rəhbərləri, iş adamları dəvət edilmişlər.

İclası giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yığıncaq iştirakçıları qarşısında 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə hesabat məruzəsi ilə çıxış etmişdir.

Məruzə ətrafında rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Rahib Əhmədov, rayon maliyyə idarəsinin rəisi Namiq Ağayev, rayon əhalinin sosial müdafiəsi mərkəzinin direktoru Arzu Hacıyev, DSMF-nin Qəbələ Rayon Şöbəsinin müdiri Ariz Məmmədov çıxış etmişlər.

Yığıncaqda müzakirə edilən məsələ ilə əlaqədar müvafiq qərar qəbul edilmişdir.

Yığıncağı rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

(Aşağıda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat məruzəsinin mətni dərc olunur).

**Oqtay MƏMMƏDOV.**
**Fotolar İ. Vəlizadənindir.**





# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat məruzəsi

**Hörmətli iclas iştirakçıları, xanımlar və cənablar!**

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclasda cənab İlham Əliyev bu ilin 6 ayının yekunları çox müsbət olduğunu və Azərbaycan uğurla inkişaf etdiyini demişdir. Dövlətimizin başçısı bildirmişdir ki, son 6 ayda iqtisadiyyat 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz artıb. Sənaye istehsalı təxminən 4 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artdığını vurğulayaraq ölkədə inflyasiya 3,5 faiz, əhalinin pul gəlirlərinin isə 6,2 faiz olduğunu demişdir. Kənd təsərrüfatında 7,3 faiz artım qeydə alınmış, son 6 ayda ölkəmizə 12,7 milyard manat sərmayə qoyulmuşdur.

Çıxış zamanı hazırda dünyanın müxtəlif yerlərində xoşagəlməz proseslərin müşahidə edildiyini, Yaxın Şərqdə qanlı toqquşmaların dayanmadığını, Avropanın dərin iqtisadi və mənəvi böhran içərisində olduğunu və bütün bunların bizi düşünməyə vadar etdiyini deyən cənab Prezident ölkəmizin Avropa qurumlarına inteqrasiyası, həmçinin əməkdaşlığın formatı ilə bağlı fikirlərini də bölüşmüşdür. "Azərbaycan bütün ölkələrlə, bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu münasibətlər qurur və biz fəaliyyətimizi bu prinsip üzərində davam etdiririk", deyən dövlətimizin başçısı Avropa İttifaqı ilə əməkdaşlıqda ölkəmizin milli maraqlarının əsas götürüldüyünü bildirmişdir.

Ölkə başçısı cənab İlham Əliyev müşavirədə Avropa Şurası Parlament Assambleyasında qəbul edilən qətnamədə münaqişə ilə bağlı əks olunan bəndin də qərəzli olduğunu vurğulamışdır. Dövlətimizin başçısı demişdir: "Qətnamənin mətnində məruzəçilər tərəfindən təklif edilmiş mətndə yazılmışdır ki, assambleya nəzərə alır ki, Azərbaycan torpaqları işğal altındadır. O cümləni götürürlər dəyişirlər, yazırlar ki, assambleya nəzərə alır ki, Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Bu nə deməkdir?! Bu, açıq-aydın anti-Azərbaycan mövqeyidir".

Avropa Şurası Parlament Assambleyasında qəbul edilən qətnamənin də anti-Azərbaycan mövqeyini əks etdirdiyini deyən dövlət başçısı bu qətnamələrin heç bir əhəmiyyətinin olmadığını vurğulamışdır. Dövlət başçısı demişdir: "Bununla bərabər, ikitərəfli formatda Avropa ölkələri ilə bizim problemlərimiz yoxdur. Bir çox hallarda Avropanın aparıcı ölkələrinin liderləri ilə görüşlər əsnasında bütün bu iradları mən əlbəttə ki, deyirəm. Deyirlər ki, fikir verməyin, onlar o fikrə layiq deyillər. Biz fikir vermirik. Əgər fikir versəydik onların dediklərini edərdik. Burada heç kim onların dediklərinin heç birini etməyəcək. O qətnamələr bizim üçün kağız parçasıdır, ona görə, heç kim heç vaxt onları icra etməyəcək. Bunu bilsinlər. Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər. Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə bu istiqamətdə gedəcəyik".

**Hörmətli yığıncaq iştirakçıları!**

2015-ci ilin birinci yarısında Qəbələ rayonunda da sosial-iqtisadi sahədə görülən işlər uğurla davam etmişdir.

Cari ilin birinci yarısında iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 69.676 min manatlıq məhsul istehsal edilmiş, keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 2.312 min manat, yaxud 29,1 faiz, kənd təsərrüfatında 404 min manat, yaxud 2,1 faiz, nəqliyyatda 104 min manat, yaxud 21,4 faiz, rabitədə 88 min manat, yaxud 17,7 faiz, ticarətdə 736 min manat, yaxud 12,8 faiz artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 681 manat, sənaye müəssisələrində çalışan 850 nəfər işçinin orta aylıq nominal əmək haqqı 435 manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 iyul 2015-ci ilədək 13.189 yeni iş yeri açılmışdır ki, ondan 11.141-i daimi iş yeridir. 6 ayda açılmış yeni iş yerlərinin sayı 493 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir. Hesabat dövründə 493 yeni iş yeri açılmışdır.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 22.351 min manat, tikinti-quraşdırma işlərinin həcmi isə 20.987 min manat təşkil etmişdir.

Rayonun yerli gəlirləri 2015-ci ilin birinci yarısında 5.919,3 min manat proqnoza qarşı 6.013,3 min manat (101,7 faiz) və ya 94 min manat çox, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 3.985,7 min manat dürüstləşdirilmiş proqnoza qarşı 3.984 min manat (99,9 faiz) və ya 1,7 min manat az, yerli xərcləri dürüstləşdirilmiş 9.904,9 min manat proqnoza qarşı 9.482,4 min manat (95,7 faiz) və ya 422,5 min manat az icra olunmuşdur.

**(Ardı 4-cü səhifədə).**